# Düşmənə ilk məğlubiyyət acısını yaşadanlardan biri

Kəndləri düşmənlə üz-üzə idi. Gecələr səksəkə içində yatar, səhəri silah səsinə oyanardılar. Evdə valideynlərindən, məktəbdə müəllimlərindən tarixin müxtəlif dönəmlərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri amansız qırğınlar haqqında söhbətləri dinləyərdi.

Dinlədikcə də erməni quldurlarına içində qəzəb böyüyürdü. Bircə arzusu var idi - tez böyümək, hərbçi olmaq. 1990-cı illərin əvvəllərində həmkəndliləri könüllü dəstə yaradıb gecələr kəndlərini qoruyanda Elnur da əlinə silah götürüb cavanlara qoşulmaq istəmişdi. Onda atası Adil kişi oğlunu yanına çağırıb deyir: "Oğul, bu xəmir hələ çox su aparacaq. Vətənimizin peşəkar, milli hərbçi kadrlara ehtiyacı var. Yaxşı olar ki, sən hərbi məktəbə qəbul olub, müstəqil Azərbaycanın Milli Ordusuna xidmət edən zabitlərdən olasan". Ata nəsihəti Elnurun ürəyindən idi. 1991-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldu...

Haqqında söhbət açdığımız 2016-cı il Aprel döyüşlərində torpaqlarımızın azad olunması uğrunda qəhrəmancasına döyüşüb şəhid olan Elnur Adil oğlu Əliyev 1976-cı il avqustun 16-da Füzuli rayonunun Dədəli kəndində dünyaya göz açıb. 1994-cü ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olub. 1998-ci ildə hərbi məktəbi uğurla başa vurub ön cəbhəyə təyinat alıb. "N" saylı hərbi hissəyə motoatıcı taqım komandiri təyin edilən



gənc leytenant Elnur Əliyev 10 il Tovuzda şərəfli xidmət yolu keçib. Əsgərlərinin, iş yoldaşlarının sevimli dostuna çevrilib. Daha sonra bir neçə il Daşkəsən, Gəncə və Murovdağda yerləşən "N" saylı hərbi hissələrdə xidmətini davam etdirib.

Elnur Əliyevin komandanlığı ilə əsgərlərimiz Füzulidə və Tovuzda düşmənin nəzarətində olan strateji əhəmiyyətli postları azad ediblər. Yüksək komandanlıq nümunəvi xidmətinə görə Elnura vaxtından əvvəl mayor rütbəsi verib.

Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə qərargah rəisi vəzifəsində xidmət edən mayor Elnur Əliyev 2014-cü ilin noyabrında xidmətini Füzuli rayonundakı "N" saylı hərbi hissədə səfərbərlik və komplektləşdirmə şöbəsinin rəisi kimi davam etdirib.

2016-cı ilin aprel ayında Ermənistan təmas xəttində atəşkəsi pozub torpaqlarımıza təcavüz edərkən ön cəbhədə düşmənlə döyüşə atılan cəsur döyüşçülərin sırasında mayor Elnur Əliyev də var idi. Lələtəpə yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı düşmənin atdığı qumbara Elnurun yaxınlığına düşür. Qəhrəman komandir döyüş yoldaşlarının, əsgərlərinin həyatını xilas etmək məqsədi ilə qumbaranın üstünə tullanıb sinəsi ilə sıxır. Qəhrəmanlıq nümunəsi göstərən mayor Elnur Əliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Elnur Əliyev aprelin 3-də böyük bir izdihamla, xalq sevgisi ilə doğulduğu Füzuli rayonunda son mənzilə yola salınıb.

Elnur Əliyev ailəli idi. Vətənə yadigar iki övladı - Elvin və Elxan ataları ilə fəxr etdiklərini qürurla dilə gətirirlər. Elvinin arzusu atasının yolunu davam etdirmək, hərbçi olmaqdır. Elvin deyir ki, atam kimi igid Vətən oğullarının başladıqları zəfər yürüşünü 2020-ci ilin Vətən müharibəsində qəhrəman əsgərlərimiz tamamladı. İndi işğaldan azad olunmuş torpaqlarımızda gedən abadlıq-quruculuq işlərini görəndə iftixar duyuruq. Fəxr edirik ki, düşmənə ilk məğlubiyyət acısını yaşadanlardan biri də atam, mayor Elnur Əliyev olub. Şübhəsiz ki, indi atamızın ruhu şaddır. Çalışacağıq ki, onun adına layiq övlad olaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.5.